# Xoşbəxt Yusifzadə dəfn olundu



**Dünən Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, görkəmli neftçi-geoloq, akademik Xoşbəxt Bağı oğlu Yusifzadə ilə vida mərasimi keçirilib, mərhum Fəxri xiyabanda dəfn olunub.**

Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında təşkil edilən mərasimə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından əklillər göndərilib.

Mərasimdə mərhumun ailəsi, yaxınları ilə yanaşı, Baş nazir Əli Əsədov və müavinləri, həmçinin bir sıra dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları və media mənsubları iştirak ediblər.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf Xoşbəxt Yusifzadənin Xəzər dənizində, keçmiş Sovet İttifaqında neft-qaz sektoru ilə bağlı layihələrin altında mötəbər imzasının olduğunu deyib. O qeyd edib ki, görkəmli neftçi-geoloqun rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft-qaz yataqlarının işlənilməsinin nəzəri əsasları hazırlanıb və uğurla həyata keçirilib: “Xoşbəxt Yusifzadə bizim hamımızın müəllimi olub. Onun neft-qaz sənayesinin inkişafında rolu əvəzsizdir. Xoşbəxt müəllimdə istənilən sualın cavabı olurdu. O, Ulu öndər Heydər Əliyevin prezidentliyi zamanında neft emalında birinci milyard tonun, Prezident İlham Əliyevin hakimiyyəti zamanında isə ikinci milyard tonun şahidi olub. Xoşbəxt Yusifzadənin keçdiyi yol bütün gənclər, neftçilər üçün nümunədir”.

Akademik Akif Əlizadə Xoşbəxt Yusifzadənin vəfatını Azərbaycan elmi üçün olduqca böyük itki adlandırıb: “Xoşbəxt müəllim Xəzər neftinin vurğunu idi. Onun üçün Xəzər neftinin və qazının ayrıca bir özəlliyi, dəyəri var idi. Xoşbəxt müəllim Azərbaycan neftinin dünyaya layiqli formada təqdim edilməsinə nail oldu. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi dövlət siyasəti ilə həmin neft və qaz Avropanın ən ucqar nöqtələrinə belə gedir”.

AMEA prezidenti akademik İsa Həbibbəyli Xoşbəxt Yusifzadənin Azərbaycan neft sektoruna və ümumilikdə Azərbaycan elminə xidmətlərindən söz açıb: “Xoşbəxt Yusifzadə Azərbaycan üçün əvəzsiz xidmətlər göstərmiş dəyərli alim idi. Onun bu xidmətlərini Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev yüksək dəyərləndirib”.

Elm və təhsil naziri Emin Əmrullayev Xoşbəxt Yusifzadənin Azərbaycan elminə, neft-qaz hasilatına verdiyi töhfələrdən bəhs edib.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Xoşbəxt Yusifzadə ilə dostluq münasibətlərindən danışıb.

Vida mərasimindən sonra mərhumun cənazəsi Fəxri xiyabana aparılıb və dəfn olunub.

**XQ**

Xalq qəzeti.- 2023.- 5 oktyabr.- S.4.